**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SÜDABƏ NƏSRƏDDİN qızı İSGƏNDƏROVA**

# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN SOSİAL REABİLİTASİYASI

**5805.01 – Korreksiya pedaqogikası**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun İnklüziv təhsil şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Yəhya Şəfi oğlu Kərimov**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar müəllim*

**Rəsmi opponentlər:** **Piralı Behbudalı oğlu Əliyev**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar müəllim*

**Nailə Tofiq qızı Hüseynova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin
Pedaqogika kafedrası

Müdafiə 18 sentyabr 2018-ci il tarixdə saat 16 $^{00}$ da Azərbaycan Dövlər Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana -İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat "___"___________2018-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi: R.Z.Hümbətəliyev
riyaziyyat üzrə elmlər
doktoru, dosent

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətin müxtəlif sahələrində kollektivin üzvü kimi formalaşması və birgə fəaliyyətdə iştirakını təmin etmək üçün onların sosial reabilitasiyası, yəni sosial statusunun bərpa olunması vacib prosesdir. Sosial reabilitasiya belə uşaqların cəmiyyətə daxil olması üçün bir vasitədir.

2008-ci ildə Cenevrədə təşkil olunmuş "İnklüziv təhsil: gələcəyə yol" adlı qırx səkkizinci Beynəlxalq konfransda "inklüziya" prosesi sosial təcrübənin əldə olunması və cəmiyyət həyatında fəal iştirak üçün hər kəsə bərabər imkanların yaradılması kimi nəzərdən keçirilir. Sosial təcrübənin əldə edilməsi kollektiv fəaliyyət və qarşılıqlı münasibətlər sayəsində mümkündür.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların bacarıqlarını maksimum inkişaf etdirmək, mövcud xidmətlərdən istifadələrini, bütövlükdə cəmiyyətin inkişaf etdirilməsi prosesində fəal iştiraklarını təmin etmək üçün onlara dəstək olmaq lazımdır. Belə uşaqların kütləvi məktəblərə, ümumiyyətlə, cəmiyyətə müvəffəqiyyətlə inteqrasiyası təkcə psixi, fiziki pozulmanın xarakteri və dərəcəsindən, onun qarşısını almağa yönəlmiş proqramlardan, təlim texnologiyalarından deyil, həm də sosial mühitin təşkilindən asılıdır. Uşağın cəmiyyətə müvəffəqiyyətlə inteqrasiyasında onun kollektiv fəaliyyətə qoşulması, sinif kollektivinə uyğunlaşması, qrupda qarşılıqlı münasibətlər sistemində fəal iştirakı vacib amildir. Bu mənada şagird kollektivinin formalaşdırılması böyük rol oynayır.

Sağlamlıq imkanları məhdud uşaqlarda sosial reabilitasiya prosesinin baş verməsi onların şəxsiyyətinin inkişafına təkan verir və sosiallaşmanın göstəricisi olan özünütəsdiq, özünüreallaşdırma ilə nəticələnir. Bu məqsədlə sağlamlıq imkanları məhdud uşaqların sosial tərbiyəsi vacib məsələlərdəndir. Onların ətraf mühitə uyğunlaşmalarında, yaşıdları və yaşlılarla münasibətlərində olan çətinlikləri təbiətlə və ətrafla əlaqənin məhdudluğunun, mədəni vərdişlərin azlığının nəticəsidir. Bu zaman sağlamlıq imkanları məhdud uşaqların sosial inkişafına göstərilən sosial-pedaqoji köməyin mahiyyətini məqsədyönlü pedaqoji yardım təşkil edir. Belə pedaqoji yardımın həyata keçirilməsinin daha əlverişli yolu təhsil müəssisələrində göstərilən pedaqoji və sosial-psixoloji xidmətin vasitəsilədir.

Məktəbdə sosial-psixoloji xidmət müəllim və psixoloqun qarşılıqlı fəaliyyəti əsasında qurulmalıdır. Həm çatışmazlıqların səviyyəsindən asılı olaraq problemə uyğun mütəxəssislərin cəlb olunması, pedaqoji prosesin təşkili, həm də psixoloq tərəfindən uyğun korreksiyaedici, bərpaedici və

inkişafetdirici məşğələlərin aparılması, eləcə də valideynlərin bu işə cəlb edilmələri şagirdlərin sosial reabilitasiya potensialını artırır, daha tez və uğurlu sosial-psixoloji və sosial-pedaqoji reabilitasiya olunmalarına kömək göstərir. Fərdin natamamlıq səviyyəsi, ehtiyac və tələbatı, ailə vəziyyəti, yaşadığı sosial mühit, məktəbəqədər və məktəb mühitində aldığı tərbiyə, əlilliyin və reabilitasiyanın başlandığı yaş mərhələsi  sosial reabilitasiya prosesinə, onun nəticəsinə təsir göstərir.

Respublikamızda sosial reabilitasiya sahəsində xeyli iş görülür - reabilitasiya mərkəzləri açılır, kadr hazırlığı üzrə iş gedir, ümümtəhsil məktəblərində inklüziv komponentli siniflərin sayı artır, lakin hələ bu sahədə praktik-metodoloji işlərin aparılmasına böyük ehtiyac vardır. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il oktyabrın 24-də verdiyi sərəncamı ilə Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasını təmin etmək məqsədilə inkişaf və inklüziv təlim metodlarının yaradılması nəzərdə tutulur. Bundan başqa "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında sağlamlıq imkanları məhdud, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müxtəlif inkişafetdirici, korreksiyaedici və inklüziv təhsil proqramlarının tətbiqi lazım bilinir.

İnklüziv təhsil konsepsiyasında da qeyd olunduğu  kimi əsas məqsəd xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiyası üçün şəraitin yaradılması və təhsil sisteminin təkmilləşdirilməsidir.

**Mövzunun öyrənilməsi vəziyyəti**: Respublikamızda ayrı-ayrı kateqoriyalar üzrə xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim-tərbiyəsinin pedaqoji və psixolji əsasları bir çox mütəxəssislər tərəfindən işlənmişdir. S.Ə.Qasımov xüsusi təhsil, əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası, N.T.Hüseynova loqopediya sahəsində, E.M. Kərimova psixi inkişafında ləngiməsi olan uşaqlarla işin təşkili, D.Ə. Dostuzadə görməsində, eləcə də eşitməsində problemləri olan uşaqlarla işin təşkili, T.A.Ağayeva nitqin inkişafı ilə bağlı, L.H.İmanova kəkələyən məktəbəqədər yaşlı uşaqlarla korreksiyaedici işin təşkili, M.Ə.Məmmədova əqli geriliyi olan məktəbəqədər yaşlı uşaqlarda zaman və məkan təsəvvürlərinin inkişaf etdirilməsi üzrə araşdırmalar aparmışlar.

Bununla belə sağlamlıq imkanları məhdud uşaqların şəxsiyyətinin inkişafı və tipik inkişaf etmiş həmyaşıdları ilə birgə sosial reabilitasiyasının həyata keçirilməsi istiqamətində elmi səviyyədə tədqiqatlar ləngiyir. Son zamanlar xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiyası, təlim-tərbiyə prosesində istifadə olunan metodlardan bəhs edən elmi məqalələr və qeyri-hökumət təşkilatı tərəfindən kitablar ("İnklüziv təhsil", "Xüsusi ehti-

yaclı uşaqların inkişafına dair rəhbərlik", "Uşaq inkişafı metodikası" və s.) nəşr olunur.

Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası məsələsi bir çox xarici ölkə alimləri tərəfindən öyrənilmişdir. Uşaqların və yeniyetmələrin qrupda şəxsiyyətinin inkişafı və sosial reabilitasiyası haqqında A.V.Petrovski, K.K.Platonova, L.İ.Umanski, A.S.Çernişev, Y.L.Kolominski; sağlamlıq imkanları məhdud uşaqların psixofiziki inkişafı və sosial reabilitasiyası üçün təhsildə fərdi humanist yanaşma üzrə L.S.Viqotski, V.VLebedinski, M.A.Vlasova, M.V.Pevzner, Q.E.Suxarevoy, A.E.Liçko; inkişafetdirici mühitin təşkilinin vacibliyi haqqında L.İ.Umanski, E.A.Şanin, L.İ.Akatov, A.S.Çernişev və başqaları tədqiqat aparmışlar. L.İ.Umanski qrupun inkişaf mərhələləri və səviyyələri, kollektivin formalaşmasının sosial mexanizmlərini öyrənmişdir. O, qrupdan fərqli olaraq kollektivə məxsus təşkilati, intellektual və iradi birliyin, fəallığın olduğunu qeyd etmişdir. A.V.Petrovski göstərmişdir ki, kollektiv birgə fəaliyyətə və ünsiyyətə əsasən formalaşır və o, şəxsiyyətin özünü dərk etməsində böyük rol oynayır.

İnklüziv təhsil üzrə britaniyalı tədqiqatçı Toni But belə hesab edir ki, inteqrasiya və inklüziya bir prosesin iki tərəfidir. İnteqrasiya sadəcə olaraq uşaqların iştirakını, inklüziya isə onların təhsil prosesinə daxil olmalarını təmin edir.

Türk tədqiqatçılarından xüsusi ehtiyaclı uşaqların inklüziyası, ibtidai təhsildə inklüziya İ.H.Diken, S.Batu; dəstək xidmətlər S.Batu, məktəbəqədər yaşda inklüziv təhsillə bağlı müəllim və valideyn mövqeyi və sinifdə həmyaşıdları ilə münasibətlərin öyrənilməsi sahəsində H. Çulhaoğlu İmrak tədqiqatlar aparmışlar. D.Çağlar inklüziyanı tam sosial inteqrasiya adlandıraraq göstərmişdir ki, inklüziya fərqli insan qruplarının müxtəlif şəraitdə birlikdə yaşaması, təhsil alması, işləməsi, istirahət etməsi, ümumiyyətlə, birlikdə olmaqdan zövq almasıdır. İnklüziyanın baş verməsi üçün o, dörd mərhələni qeyd etmişdir: fiziki, funksional, sosial və tam sosial inteqrasiya, yəni inklüziya.

Göründüyü kimi, sağlamlıq imkanları məhdud uşaqların sosial adaptasiyası, inteqrasiyası, sosial reabilitasiyası və inklüziyasının sosial-psixoloji mexanizm kimi araşdırılmasına böyük ehtiyac var. Eləcə də məktəb daxilində sağlamlıq imkanları məhdud kiçikyaşlı məktəblilərin təlim-tərbiyə probleminin həlli üçün elmi əsaslandırılmış pedaqoji-texniki vasitələrin çatışmaması; pedaqoji prosesin idarə olunmasının və müəllim, psixoloq, valideyn, müəllim köməkçisinin əməkdaşlığının düzgün təşkil olunmaması; sosial reabilitasiya prosesində şagird kollekivlərinin, valideynlərin iştirakı-

nın vacibliyi və onların pedaqoji hazırlığının çatışmaması bu işin sosial-psixoloji və sosial-pedaqoji həllində bir sıra çətinliklərin qarşıya çıxmasına səbəb olur. Bu ziddiyyətlərin həlli yollarının axtarılması məqsədilə xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiyasına aid tədqiqat aparmağı lazım bildik.

Tədqiqatın praktik hissəsi sağlamlıq imkanları məhdud uşaqlar üçün Xəzər rayonu 12 nömrəli xüsusi internat məktəbinin I-IV siniflərində, Bakı şəhəri 246 nömrəli məktəbin inklüziv tipli ibtidai siniflərində və Azərbaycana Birgə Yardım Təşkilatında keçirilmişdir.

Tədqiqat zamanı pedaqoji prosesdə dayaq-hərəkət aparatında çatışmazlıqları olan 28, ümumilikdə müxtəlif kateqoriyalı 74 kiçikyaşlı məktəbli, 23 pedaqoq, 9 loqoped, 5 psixoloq, 4 tibb işçisi və 47 valideyn iştirak edirdi.

**Tədqiqatın obyekti** dayaq-hərəkət aparatında çatışmazlığı olan kiçikyaşlı məktəblilərin sosial reabilitasiyası prosesidir.

**Tədqiqatın predmetini** dayaq-hərəkət aparatında çatışmazlığı olan kiçikyaşlı məktəblilərin sosial reabilitasiyası təşkil edir.

**Tədqiqatın məqsədi:**

- sağlamlıq imkanları məhdud kiçikyaşlı məktəblilərin sosial reabilitasiyası fəaliyyətinin məzmununu və istifadə olunan metodları müəyyən etmək;
- pedaqoji prosesdə sosial reabilitasiya üzrə işin təşkili yollarını göstərmək;
- dayaq-hərəkət aparatında çatışmazlığı olan kiçikyaşlı məktəblilərin sosial reabilitasiyasında korreksiyaedici və inkişafetdirici istiqaməti müəyyənləşdirmək.

**Tədqiqatın fərziyyəsi.** Sağlamlıq imkanları məhdud uşaqlar kollektivə məxsus sosial bacarıqlar qazanarsa, pedaqoji şərait yeni prinsiplər əsasında qurularsa onların sosial reabilitasiyasında müvəffəqiyyət əldə etmək olar.

**Köməkçi fərziyyə:**

- dayaq-hərəkət aparatında çatışmazlıqları olan kiçikyaşlı məktəblilərin sosial reabilitasiya prosesini sürətləndirmək üçün onların sosial bacarıqlarla yanaşı fiziki, koqnitiv, yaradıcı bacarıqları da inkişaf etdirilərsə;
- psixoloq tərəfindən müəyyənləşdirilmiş çatışmazlıqların həll olunmasına dərs prosesində də şərait yaradılarsa;
- məktəb psixoloqu və müəllim heyəti valideynlərlə əməkdaşlığı genişləndirərsə;
- pedaqoji prosesdə əyanilik, interaktivlik, tədqiqatçılıq prinsipləri

üstünlük təşkil edərsə, müəllim şagirdyönümlü fəaliyyətinin zehni mərhələsində prosesyönümlü olarsa, sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasına nail olmaq mümkündür.

**Tədqiqatın vəzifələri:**

- sağlamlıq imkanları məhdud uşaqlarla aparılan sosial reabilitasiya işinin mahiyyətini müəyyən etmək;
- reabilitasiya mərkəzlərində bu problemin həlli ilə tanış olmaq;
- xüsusi, internat tipli və ümumi məktəblərdə problemlə bağlı vəziyyətlə tanış olmaq;
- dayaq-hərəkət aparatında çatışmazlığı olan uşaqların sosial reabilitasiyasında xüsusi metodları və priyomları tətbiq etmək;
- sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası üçün inkişafetdirici mühitin, pedaqoji prosesin təşkili və s.

**Müdafiəyə təqdim olunan müddəalar.**

- sosial reabilitasiya sağlamlıq imkanları məhdud uşaqların sosiallaşma prosesi olub, sosial statusun bərpası yolu ilə şəxsiyyətin inkişafını təmin edir;
- sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası kollektivə məxsus sosial motivlərin inkişafından asılıdır və bu fiziki inteqrasiya ilə deyil, inklüziya ilə nəticələnir;
- sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası kollektivdə birgə fəaliyyət və qarşılıqlı ünsiyyətin təmin olunması ilə mümkündür;
- sağlamlıq imkanları məhdud uşaqlar və ailələri, məktəb kollektivi ilə aparılan maarifləndirici, profilaktik, diaqnostik, korreksiyaedici, inkişafetdirici tədbirlərin, konsiliumların keçirilməsi uşaqların hərtərəfli inkişafına və sosial reabilitasiya potensialının artmasına kömək edir;
- inkişafetdirici fəaliyyət sağlamlıq imkanı məhdud uşağın şəxsiyyətinin inkişafı üçün sosial-psixoloji və pedaqoji şəraitin yaradılmasına, korreksiya fəaliyyəti isə onların fərdi psixi və pedaqoji inkişafındakı çatışmazlıqların aradan qaldırılmasına yönəldilir;
- tədris zamanı müəllimin refleksiya bacarığının inkişaf etdirilməsi, prosesyönümlü tədrisin təşkili sağlamlıq imkanları məhdud uşaqların pedaqoji prosesdən kənarda qalmamalarına və sosial reabilitasiyasını həyata keçirməyə imkan verir.

**Tədqiqatın metodoloji əsasını** elmi və praktik materialların sistemli təhlili, həmçinin yerli və xarici mütəxəssislərin sosial reabilitasiya sahəsindəki nəzəri və praktik ideyaları; pedaqoji prosesləri öyrənmək və dəyişiklik aparmaqla tətbiq olunan prinsip və metodlar təşkil edir.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı nəzəri təhlil, elmi faktların toplanması üçün proqram və metodik ədəbiyyatın təhlili, məktəb təcrübəsinin təhlili, irəli sürülmüş fərziyyənin yoxlanması, müşahidə, məktəb sənədlərinin öyrənilməsi, müsahibə, anket-sorğu, test, müqayisə, ümumiləşdirmə, interaktiv və fəal təlim metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasının mahiyyəti sosial-psixoloji və pedaqoji nöqteyi-nəzərdən elmi şəkildə açıqlanır, belə uşaqların sosial reabilitasiyasının psixopedaqoji əsasları aydınlaşdırılır. Bundan başqa sosial reabilitasiya baxımından sağlamlıq imkanları məhdud uşaqlarlarla sosial-psixoloji xidmət işi sistemli şəkildə izah olunur, məktəblərdə sosial-pedaqoji reabilitasiya işinin təşkili yolları, pedaqoji prosesin idarə olunması məsələləri göstərilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqat korreksiya pedaqogikası elmini sosial reabilitasiyanın psixopedaqoji normaları haqqında elmi nəticələrlə zənginləşdirir. Məktəbdə sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası üçün pedaqoji şəraitin təşkili, bu prosesdə pedaqoqun rolu, valideynlərin köməyinin təşkili tətbiq edilərək nəzəri-praktik kontekstdə təhlil olunur.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatda irəli sürülən təkliflərdən xüsusi, internat və inklüziv tipli məktəblərin müəllimləri, pedaqoqlar, sosial işçilər və digər müəxəssislər, eləcə də valideynlər sağlamlıq imkanları məhdud uşaqlarla sosial reabilitasiya işinin təşkilində istifadə edə bilərlər.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Tədqiqatın nəticələri bir sıra xüsusi və ümumi orta pedaqoji təmayüllü məktəblərdə, ali məktəblərin yenidənhazırlanma və ixtisasartırma fakültələrinin müvafiq ixtisaslarında, iştirak etdiyim respublika və beynəlxalq layihələrdə, elmi-praktik konfranslarda müzakirə edilmiş, Ali Attestasiya Komissiyasının müəyyənləşdirdiyi elmi jurnallarda dərc olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, səkkiz yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, fərziyyəsi, tədqiqat metodları, elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim edilmiş müddəalar qeyd olunmuşdur.

**“Tədqiqatın nəzəri əsasları“** adlananbirinci fəsil dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsil***“Sosial reabilitasiyanın mahiyyəti, məqsəd və vəzifələri”***adlanır. Bu yarımfəsildə sosial reabilitasiyanın fəaliyyət, proses və nəticə kimi mahiyyəti aydınlaşdırılır. Bu, proses kimi sağlamlıq imkanları məhdud uşaqların sosial statusunun bərpası üçün ardıcıl və davamlı təsirin göstərilməsi sayəsində uşağın daxilində baş verir. Sosial-pedaqoji-psixoloji reabilitasiya xüsusi şəkildə təşkil olunmuş şəraitdə mütəxəssis və sağlamlıq imkanları məhdud uşaqların məqsədə-yönəlmiş birgə işinə əsaslandığı üçün fəaliyyət hesab olunur. Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası sosial-pedaqoji və sosial-psixoloji köməyin nəticəsidir.

Tibbi, pedaqoji, psixoloji, iqtisadi, peşə reabilitasiyaları öz məqsədlərini yerinə yetirərkən əlavə nəticə kimi sosial reabilitasiya məsələsi meydana çıxır. Sosial-psixoloji və pedaqoji sahədə sosial reabilitasiya fəaliyyətinin təşkili, həmçinin şagird kollektivinin formalaşdırılması ilə sağlamlıq imkanları məhdud uşaqlarda sosial reabilitasiya prosesi baş verir və sosial status qazanılır. Digər reabilitasiya tədbirləri, korreksiya və kompensasiyaedici iş nəticəsində yalnız müəyyən situasiyalara uyğun qrupa məxsus sosial bacarıqlar yaranır və bu, şagird kollektivində sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiya olunmalarına imkan vermir. Qrupun inkişaf etmiş forması kimi özü-özünü idarə edən şagird kollektivinə məxsus sosial bacarıq və vərdişlər şagirddə birgə fəaliyyət və ünsiyyət prosesində davamlı olaraq formalaşan sosial motivlər sayəsində inkişaf edir.

***“Problemlə əlaqədar ədəbiyyatın və proqramların təhlili”*** adlanan ikinci yarımfəsildə sosial reabilitasiya haqqında sosial psixologiya, korreksiya pedaqogikası, xüsusi psixologiyaya aid, sosial iş və təcrübəyə əsaslanan ədəbiyyatın təhlili nəticəsində məlum oldu ki, birinci qrup ədəbiyyatda sağlamlıq imkanları məhdud uşaqların sadə əmək vərdişlərinə, sosial-məişət adaptasiyasının yerinə yetirilməsinə xüsusi diqqət verilir; ikinci qrup ədəbiyyatda pedaqoji şəraitin dəyişdirilməsi vacib məsələ kimi qeyd olunur; üçüncü qrup ədəbiyyatda isə müxtəlif terapiyaların sosial adaptasiya və reabilitasiyada əhəmiyyəti verilir. Sosial-məişət adaptasiyası sosial mühitdə öz rolunu və statusunu qəbul etməkdə böyük rol oynayır. Bundan başqa, müxtəlif qabiliyyətə və ehtiyaclara malik fərdlər eyni təlim mühitində təhsil aldıqda və qərar qəbul etmək bacarığı tərbiyə edildikdə daha optimal təlim mühiti yaradılır.

Bu yarımfəsildə pedaqoji prosesdə sağlamlıq imkanları məhdud uşağın fərdi təlim planlarının inkişaf etdirilməsi; sinifdə müvafiq mühitin

yaradılması; sosial, emosional, nitq, idraki və fiziki inkişafa şəraitin təmin edilməsi haqqında da qeyd olunmuşdur. Kollektivdə qarşılıqlı anlaşma imkanlarının genişləndirilməsində, "Mən" konsepsiyasının formalaşdırılmasında, özünüqiymətləndirmənin yüksəldilməsində zooterapiya, izoterapiya, artterapiya, dramaterapiya, oriqamentlərlə məşğələlərin rolu qeyd olunmuşdur. Dördüncü qrup ədəbiyyatdan istifadə olunaraq inteqrasiya və inklüziya, adaptasiya və sosial reabilitasiya sosial mexanizm kimi araşdırılmış, sağlamlıq imkanları məhdud uşaqların şəxsiyyətinin inkişafı qrup və kollektivin formalaşdırılması baxımından təhlil edilmişdir.

Sosial reabilitasiya çərçivəsində həyata keçirilən fəaliyyət proqramlarının təhlili onun müxtəlifyönlü olduğunu göstərir. Bu fəaliyyətlər sosial reabilitasiya potensialını artırır. Onlara koqnitiv inkişaf, çoxsahəli sosial-psixoloji xidmət, sağlamlıq və fiziki tərbiyə üzrə, loqopedik məşğələlər, sosial-mədəni inkişaf proqramları daxildir. Sağlamlıq imkanları məhdud uşaqların fərdi xüsusiyyətləri və sosial mühitə reaksiyaları fərqli olduğu üçün şagirdin potensialı, güclü tərəfləri, ehtiyacları, maraqları diqqətlə dəyərləndirilir və fərdi tədris planında qeyd olunur. Fərdi tədris planına dəyərləndirmə, planlaşdırma, tədrisin idarə olunması məsələləri və şagirdin inkişafı haqqında məlumatlar da daxil edilir.

***"Reabilitasiya mərkəzlərində problemin həlli yolları"***adlanan üçüncü yarımfəsildə respublikamızda fəaliyyət göstərən bir sıra reabilitasiya mərkəzlərinin təcrübəsi, orada işləyən psixoloq, loqoped, inkişaf terapevti, xüsusi pedaqoq və digər mütəxəssislərin fəaliyyətlərinin məzmunu verilmişdir. Bu yarımfəsildə qeyd edilir ki, reabilitasiya mərkəzlərində sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasını təmin etmək üçün müxtəlif istiqamətli işlər aparılır. Onların təhsilə, incəsənətə, idmana, peşə təliminə və əməyə yönəldilməsi, psixoloji dəstəyin göstərilməsi, inkişaf terapiyası üzrə işlərin aparılması, icma ilə əlaqələrin genişləndirilməsi, valideyn bacarıqlarınıın artırılması, inklüzivlik prinsipi və fərdi yanaşma əsasında uşaqların təhsilinin təmin edilməsi nəzərdə tutulur. Bunun üçün uşaqların reabilitasiya potensialı müəyyən edilir və fərdi təhsil proqramları üzrə məşğələlər keçirilir. Məqsəd xüsusi qayğıya ehtiyacı olan uşaqlara qayğı göstərərək, onların sosial adaptasiyasını, inkişafını təmin edərək, sosial əyləndirici və dəstəkləyici fəaliyyətlərə qoşulmalarına imkan yaradaraq cəmiyyətə inteqrasiyalarını təmin etməkdir.

Reabilitasiya mərkəzlərinin həyata keçirdiyi icma ilə əlaqələrin genişləndirilməsi və tipik inkişaf etmiş uşaqlarla birgə fəaliyyətin təşkili isə inklüziyanı təmin edir. Bu təcrübədən istifadə edərək sosial və inklüziya modelləri üzrə şəxsiyyətin inkişafı yollarını fərləndirmək, fərdi tədris

planlarının işlənilməsi qaydalarını öyrənmək, ailələrlə işin təşkili yollarını müəyyənləşdirmək mümkün oldu.

*"Xüsusi qayğıya ehtiyacı olan kiçikyaşlı məktəblilərin sosial reabilitasiyasının psixopedaqoji əsasları"*adlanan dördüncü yarımfəsildə qeyd edilmişdir ki, sağlamlıq imkanları məhdud kiçikyaşlı məktəblilərin sosial reabilitasiyasının psixopedaqoji əsasları pedaqoji prosesin psixoloji təsiri ilə müəyyən olunur. Bu təsir özünü idarə edən şagird kollektivinin formalaşdırılmasından və pedaqoji prosesin təşkilindən asılıdır.

Sağlamlıq imkanları məhdud şagirdlərin iştirak etdiyi pedaqoji prosesdə müxtəlif fərdi qabiliyyət və ehtiyacları ilə birgə fəaliyyətə daxil olan münasibətlər ön planda durur. Belə münasibətlərin iştirak etdiyi mühitdə tədrisi həyata keçirmək üçün diferensial təlim strategiyasından istifadə olunur. Bu, müxtəlif öyrənmə və düşüncə tərzinə malik olan şagirdlərə məzmunun mənimsənilməsini təmin edən təlim metodudur. Fəal təlim formasında yerinə yetirilən tədris prosesində sağlamlıq imkanları məhdud şagirdlərin pedaqoji reabilitasiyası ilə bərabər sosial reabilitasiyası da baş verir.

Yarımfəsildə sosial reabilitasiya prosesinin sosial, pedaqoji və psixoloji əsasları da qeyd olunmuşdur. Onun sosial əsasını adaptasiya, inteqrasiya və sosiallaşma prosesi; psixoloji əsasını şəxsiyyətin inkişafı üçün məqsədyönlüyü inkişaf etdirmək və fəaliyyətin subyektinə çevrilməsinə şərait yaratmaq, refleksiya sayəsində davranışın idarə olunması, qrup müzakirəsinin yeni sosial situasiya və münasibətlər yaradaraq, oxşar və fərqli cəhətlərin müəyyən olunması ilə şüurun formalaşmasına təkan verməsi; pedaqoji əsasını isə təbii şəraitdə baş verən, idrak maraqları və ünsiyyət tələbatı yaradan xüsusi metodlar vasitəsilə həyata keçirilən birgə fəaliyyət təşkil edir. Bu da sensomotor, sosial, idraki, kommunikativ bacarıqların intensiv inkişafı üçün şərait yaradır.

Bu fəsildə ibtidai sinfi bitirən sağlamlıq imkanları məhdud şagirdlərin qiymətləndirilməsi üçün meyarlar da verilmişdir.

Dissertasiyanın **"Xüsusi qayğıya ehtiyacı olan kiçikyaşlı məktəblilərin sosial reabilitasiyasının təkmilləşdirilməsi yolları"** adlı ikinci fəsli dörd yarımfəsildən ibarətdir. Bu fəsildə sağlamlıq imkanları məhdud uşaqlarla aparılan tədqiqat işi, istifadə olunan metodlar, qiymətləndirmə, məktəbdə sosial reablitasiyanın təşkili yolları öz əksini tapmışdır.

*"Tədqiqatın təşkilinin psixopedaqoji və praktik-tətbiqi məsələləri"*adlanan birinci yarımfəsildədəyərləndirmə zamanı məlum oldu ki, tədqiqatın aparıldığı müəssisələrdə dayaq-hərəkər aparatı çatışmazlığı olan kiçikyaşlı məktəblilərin güclü xüsusiyyətləri ilə müəllimlərin inkişaf

etdirdikləri sahələr arasında ziddiyyət vardır. Onlarda sağlamlıq və təhlükəsizliyə əməl etmək, oyun şəklində təşkil olunmuş təlimə müsbət münasibət, müstəqilliyə, yardım etməyə meyllilik, özünəxidmət, yoldaşlıq kimi güclü cəhətlər müşahidə olunduğu halda, müəllimlər oxu və yazı bacarıqlarının, ətraf aləmlə tanışlıq, böyük motor bacarıqlarının inkişafına çox, ünsiyyət və sosial bacarıqların inkişafına isə daha az diqqət edirdilər.




Şək.1. Pedaqoji kollektivin üstünlük verdiyi bacarıqların diaqramla ifadəsi

Şəkil 1-dən göründüyü kimi müəllimlər pedaqoji reabilitasiya potensialı aşağı olan sağlamlıq imkanları məhdud şagirdlərin sosial inkişafından daha cox onlarda biliyin formalaşmasına diqqət edirlər. Bununla da inklüziv tipli siniflərdə şagird gözlənilən nəticəni verə bilmədiyi üçün sinif kollektivindən uzaqlaşdırılır, reabilitasiya mərkəzlərində onların sosial inteqrasiyasına nail olunur, xüsusi məktəblərdə isə mexaniki yaddaşa əsaslanan təlim forması idrak potensialı zəif olan belə şagirdlərin tədris prosesindən, sosial inkişafdan, eləcə də cəmiyyətdən kənar qalmaları ilə nəticələnir və birgə fəaliyyətə daxil ola bilmirlər.

Güclü tərəflərin inkişaf etdirilməsi sağlamlıq imkanları məhdud uşaqlarda sosial reabilitasiyanın proses kimi baş verməsinə və şəxsiyyətin inkişafına şərait yaradır.

| Sıra nömrəsi | Eyni vaxtda müşahidə edilən bacarıqlar | Uşaqların sayı |
|---|---|---|
| 1 | sağlamlıq və təhlükəsizliyə əməl etmək | 24 |
| 2 | oyun şəklində təşkil olunmuş təlimə müsbət münasibət | 24 |
| 3 | müstəqillik | 22 |
| 4 | yardımetmə | 21 |
| 5 | özünəxidmət | 20 |
| 6 | Yoldaşlıq | 19 |
| | Uşaqların ümumi sayı | 28 |

Şək.2. Dayaq-hərəkət aparatı çatışmazlıqları olan uşaqların güclü cəhətləri

Şəkil 2-də görünür ki, şagirdlər sağlamlıq və təhlükəsizliyə əməl etmək kimi təməl tələbatı nümayiş etdirmək, hər hansı fəaliyyt növünə maraq və iradi potensiala malikdirlər.

Şəxsiyyətin sosiallaşmasında güclü tərəflərin inkişaf etdirilməsi mühim rol oynayır və bu zaman potensial imkanına görə emosional-iradi sferada, eləcə də digər sahələrdə olan problemlər nisbətən aradan qalxır. Dəyərləndirmə zamanı dayaq-hərəkət aparatı çatışmazlıqları olan şagirdlərin sosial-emosional inkişaf sahəsində bir çox pozuntular aşkar edildi. Burada 23 nəfərdə qorxu, 20 nəfərdə özünəinamsızlıq, 18 nəfərdə ailədaxili münasibətlərin pozulması, 14 nəfərdə narahatlıq, 10 nəfərdə özünəqapalılıq, 9 nəfərdə adaptasiya çətinlikləri, 7 nəfərdə həmyaşıdları ilə münasibətlərin pozulması müşahidə olundu:




Şək. 3. Sosial-emosional inkişaf sahəsində baş verən pozuntuların diaqramla ifadəsi

Bundan başqa məktəb daxilində pedaqoji və psixoloji reabilitasiyanın zəif təşkili də sosial reabilitasiya olunmağa təsir edir. Xüsusi məktəblərdə ənənəvi tədris yolu zəif emosional-iradi sferaya və kommunikasiya qabiliyyətinə malik sağlamlıq imkanları məhdud şagirdlərin sosial reabilitasiya olunmalarına imkan vermir. Xüsusi internat tipli məktəblərdə valideynlər uşaqlarının cəmiyyətə inklüziya olunmasında iştirak etməlidirlər. Həmçinin, inklüziv tipli siniflərdə dərs prosesində müəllimin sağlamlıq imkanları məhdud şagirdlərin sosial inkişafına nail olması, digər şagirdlərlə əməkdaşlıq etməsinə şərait yaratması, müəllim köməkçisinin bütün şagirdlərlə işinin təşkili də vacib məsələdir.

***"Dayaq-hərəkət aparatında çatışmazlığı olan kiçikyaşlı məktəblilərin sosial-pedaqoji reabilitasiya işinin təşkili yolları"*** adlanan ikinci yarımfəsildə qeyd olunur ki, sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası kollektivdə pedaqoji təsir vasitələri ilə, pedaqoji prosesdə pedaqoji reabilitasiya ilə yanaşı, kollektivə məxsus sosial bacarıq və vərdişlərin inkişafı ilə, sosial-psixoloji xidmət çərçivəsində isə fərdi inkişafetdirici tədbirlər onların ehtiyaclarına uyğun planlaşdırıldı, qrupda, daha sonra kollektivdə yerinə yetirildi. Sagirdlərin yaşıdları ilə birgə işə cəlb edilmələri, təlim almaları üçün yaşıdları vasitəsilə öyrətmə, sosial vərdişlərin öyrədilməsi və öz davranışlarına nəzarətdə uşaqlara kömək edilməsi metodlardan istifadə olundu. Şagird kollektivinin formalaşdırılmasında əmək bölgüsü, qrupun marağına uyğun məqsədin qoyulması, qarşılıqlı hesabat, tənqid, özünütənqidin yaranması, kollektivdə ictimai rəyin formalaşdırıl-

ması və kollektivə məxsus ənənələrin yaradılması prinsipləri əsas götürüldü.

Emosional sahədə və davranışda, şəxsiyyətin inkişafında pozuntuların korreksiyasına yönəlmiş fərdi sosial-psixoloji xidmət kiçik qruplarda və kollektivdə davam etdirildi. Birbaşa şagird kollektivində şəxsiyyətin müsbət tərəflərinin inkişaf etdirilməsi digər sahədəki çatışmazlıqların aradan qalxmasına səbəb oldu. Şəxsiyyətin korreksiyası onun strukturunda olan pozuntuların aradan qaldırılmasına və psixoloji sağlamlığın bərpa olunmasına yönələrkən, səxsiyyətin inkişafı sosial statusun bərpası ilə nəticələnir.

Pedaqoji proses eyni şagird kolektivində aparıldığı üçün qruplarla, cütlərlə fəal təlim formasında keçirilən dərs həm şagirdin pedaqoji, həm də sosial reabilitasiyasına şərait yaratdı. Dəstəkləyici, stimullaşdırıcı, inkişafetdirici tədrisin və differensial təlimin təşkili sağlamlıq imkanları məhdud şagirdlərin təlim ehtiyacını ödəməyə imkan verdi. Eləcə də müəllimin pedaqoji prosesdə öz fəaliyyətinə psixoloji ölçülərlə nəzarət etməsi onun refleksiya qabiliyyətinin artmasına və bütün şagirdlərin təlim ehtiyaclarının ödənilməsinə şərait yaratdı. Sağlamlıq imkanları məhdud şagirdlərin pedaqoji prosesdə sosial reabilitasiyasına nail olmaq və tədris prosesinin qiymətləndirilməsi üçün müəllimin fəaliyyətində prosesyönümlüyün nəzərə alınması məqsədilə müəllimlərlə konsiliumlar keçirildi.

***“Ailələrlə qarşılıqlı fəaliyyət imkanlarının genişləndirilməsi”*** adlanan üçüncü yarımfəsildə ailələrlə qarşılıqlı iş zamanı onların maarifləndirilməsi, öz uşaqlarının təlim-tərbiyəsində iştiraka həvəsləndirilməsi, informasiya mübadiləsi və valideynlərin dəstəklənməsinin vacibliyi qeyd olunur. Ünsiyyət zamanı ailənin problemi ilə yaxından tanış olmaq, ehtiyaclarının dərk olunmasına şərait yaratmaq və güclü cəhətlərini nəzərlərinə çatdırmaq lazımdır. Valideyndə elə bir fikir formalaşdırmaq lazımdır ki, uşağın arzuolunmaz davranışlarının aradan qaldırılmasına deyil, müsbət davranışlarından istifadə edərək sosial vərdişlərin inkişafına diqqət yetirsin. Sağlamlıq imkanları məhdud uşaqların düzgün tərbiyə edilməsində əməyə alışdırılmağın da rolu böyükdür. Özünəxidmət vərdişlərinin yaradılması və ev işlərinin birgə yerinə yetirilməsi uşaqda əməyə düzgün münasibət formalaşdırır. Bu, həmçinin uşaqların sosial bacarıqlar əldə etmələrinə kömək göstərir. Valideynlər, əsasən, uşağın öz davranışına nəzarət etməsi, iradi-mədəni davranışların formalaşdırılması, müəyyən davranış modelinin öyrədilməsi üçün təlimatlandırıldı. Bundan başqa uşaqlarının ehtiyac və imkanlarının dərk olunmasına, onların hərtərəfli inkişafı, müşahidələrinin təşkili, kollektivə adaptasiyası, sosial-emosional inkişafı, ailədə sosial vər-

dişlərin formalaşdırılması, sağlam sosial mühitin yaradılması, ev tapşırıqlarının birgə həllində kömək göstərilməsinə həvəsləndirildi.

***"Sosial reabilitasiya üzrə işin xüsusi qayğıya ehtiyacı olan kiçikyaşlı məktəblilərin şəxsiyyətinin formalaşmasına təsiri"*** adlanan dördüncü yarımfəsildə sağlamlıq imkanları məhdud məktəblilərin sosial reabilitasiyası inkişafetdirici tədbirlərlə şəraitin yaradılması, valideynlərin köməyindən maksimum istifadə edilməsi, pedaqoji prosesdə müəllimin yanaşmasının dəyişdirilməsi, pedaqoq-psixoloq əməkdaşlığının formalaşdırılması yolu ilə təmin olundu. Bu kompleks təsir dayaq-hərəkət aparatı çatışmazlığı olan şagirdlərin şəxsiyyətinin inkişafında, həmçinin sosial statusun və bacarıqların qazanılması zəminində bir sıra şəxsi keyfiyyətlərin formalaşmasına səbəb oldu. Şəxsi keyfiyyətlər birgə fəaliyyətdə əmək bölgüsü, iradi cəhd, fiziki iş və ali hisslərin inkişafı nəticəsində formalaşdırıldı və tədris prosesində davam etdirildi.

Əmək fəaliyyəti ilkin bacarıqların formalaşması və adaptasiyanın yaranmasında böyük rol oynayır. Bu zaman ətraf mühitə qarşı psixoloji adaptasiyanın, yəni dözümlülüyün yaranması da şəxsi keyfiyyət kimi özünü göstərir. Birgə fəaliyyətdə təbii olaraq ünsiyyət tələbatının yaranması onun bütün funksiyalarının həyata keçirilməsinə imkan verir. Başqalarının hiss və emosiyalarını anlama, təsir göstərə bilmə və informasiyanın ötürülməsi kimi xüsusiyyətlər formalaşır. Fəaliyyət prosesində şagird öz davranışını qarşılıqlı şəkildə tənzimləməyi öyrənir. Fiziki iş fəallıq yaradaraq reabilitasiya potensialını yüksəldir. Kollektivdə borc və məsuliyyət hissinin inkişafı, birgə fəaliyyətə cəhd iradi səyləri artırır. Odur ki, sosial statusun bərpası prosesində başqalarına maraq, hörmət, başqalarının ehtiyaclarına həssaslıq, kömək, əməkdaşlıq kimi kolektivə məxsus şəxsi keyfiyyətlər yaranır.

Tədqiqat zamanı qrup fəaliyətində müşahidə olunan adaptasiya, fərdiləşmə, inteqrasiya səviyyələrinə uyğun olaraq sağlamlıq imkanları məhdud məktəblilərin davranış və reaksiyaları izlənildi. Bunun üçün onların müstəqil oyun fəaliyyətində, müəllimin nəzarəti altında qaydalarla idarə olunan oyunlarda və konstruktiv fəaliyyətlərdə emosional, davranış, koqnitiv cəhətdən iştirakı təhlil edildi:

| Səviyyə | Göstəricilər | Emosional komponent | Davranış komponenti | Koqnitiv komponent |
|---|---|---|---|---|
| 1.adaptasiya | müdaxilə və mə- | qarşılıqlı münasibət- | fəaliyyətin gedişinə | təbii və impulsiv olaraq oyun fəaliyyətin- |

| | | | | |
|---|---|---|---|---|
| | nimsəmə | lərə düzgün reaksiya | hərəkətləri ilə düzgün reaksiya | də iştirak |
| 2.fərdi-ləşmə | fəaliyyətə bəzən da-xil olma, empatiya və simpa-tiya | reaksiya vermə və onun hiss-lərini başa düşmə | rola və fəa-liyyət gedi-şinə görə qı-sa yönəl-mələr | çətinlik çəkdikdə və konfliktkli situasiya-lara reaksiya vermə |
| 3.Tam inteqra-siya və ya in-klüziya | fəaliyyətə daxil ol-ma,yar-dım etmə | digər uşağa diqqət yeti-rir, onun ar-zu və istək-lərini nəzə-rə alır | birgəiştirak, roluna görə müraciət edir, özünü başqasının yerinə qo-yur, kömək edir | konstruktiv reaksiya, konfliktli situasiyala-rın həlli yollarını gös-tərmək, birgə fəaliy-yət haqqında razılaş-maq, güzəştə getmək, öz fikrində israrlı ol-maq, ümumi qərara gələ bilmə |

Şək.4. Sərbəst oyun fəaliyyətinə daxil olmanın göstəricisi

Şəkil 4 sağlamlıq imkanları məhdud uşaqların sərbəst oyun fəaliyyətinə tam inteqrasiya olunma potensialını göstərir. Həmçinin onların qaydalarla idarə olunan oyunlara və konstruktiv fəaliyyətlərə daxil olması da birgə iştiraka və sosial münasibətlərin qurulmasına əsasən baş verir. Tədqiqatın sonunda dayaq-hərəkət aparatında çatışmazlığı olan şagirdlərin sosial statusun bərpası prosesində bir sıra şəxsi keyfiyyətlərinin yaranması müşahidə olundu:

| Sıra nömrəsi | Bacarıq | Həmişə | Tez-tez | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|---|
| 1 | başqalarına maraq | + | | | |
| 2 | başqalarına hörmət | | + | | |
| 3 | dinləmək | | + | | |
| 4 | başqalarının ehtiyaclarına həssaslıq | | | + | |
| 5 | başqaları haqqında ədalətlə fikir yürütmə | | + | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6 | əməkdaşlıq | + | | | |
| 7 | hərəkət etməzdən qabaq düşünmək | | | + | |
| 8 | düzlük | | + | | |
| 9 | səmimiyyət | + | | | |
| 10 | başqalarına kömək | + | | | |
| 11 | səhvin etirafı | | | + | |

Şək.5.Şagirdlərin şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi

Şəkil 5-də qeyd edilən şəxsi keyfiyyətlər həm ünsiyyətə, həm də fəaliyyətə yönəlik keyfiyyətlərdir. Onlar yalnız dərs prosesində deyil, dərsdən və məkəbdən kənar vaxtlarda da müşhidə olundu. Bu keyfiyyətlərin müxtəlif situasiyalarda və şəraitdə müşahidə olunması şagirdin birgə fəaliyyətdə və ünsiyyətdə onun subyektinə çevrildiyini, davamlı olaraq sosil tələbatların yarandığını göstərir. Şagirdlərdə şəxsi keyfiyyətlərdən başqa qrupda birgə işləmək bacarığı da formalaşdı:

| Sıra nömrəsi | Bacarıq | Həmişə | Tez-tez | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|---|
| 1 | Qrupda şifahi müzakirələrdə iştirak edir. | | + | | |
| 2 | Başqalarının sözünü kəsmədən dinləyir. | | | + | |
| 3 | Qrupun digər üzvlərinin danışdıqlarını təkrar nəql edə bilir. | + | | | |
| 4 | Qrup işində lazım olan tapşırıqları yerinə yetirir. | | + | | |
| 5 | Qrupun digər üzvlərini ümumi işə cəlb edir. | | + | | |

Şək.6. Şagirdlərin qruplarda işləmək bacarığının qiymətləndirilməsi

Şəkil 6-dan göründüyü kimi, belə bacarıqlara malik sağlamlıq imkanları məhdud məktəblilərin daim birgə fəaliyyətə marağı olur və bu fəaliyyətdə iştirak edirlər.

Tədqiqatın sonunda dayaq-hərəkət aparatı çatışmazlıqları olan kiçikyaşlı məktəblilərin emosional, davranış və koqnitiv xüsusiyyətləri, şəxsiyyət səviyyəsində baş verən dəyişikliklər və müsbət şəxsi keyfiyyətlər, kollektivə məxsus sosial vərdişlər, birgə fəaliyyətdə iştirak zəminində sosial-emosional inkişaf sahəsinin son qiymətləndirməsinin ilkin vəziyyətlə müqayisəsi aparıldı:

Tədqiqatın nəticəsi (sosial-emosional inkişaf sahəsinə görə)

Cədvəl 1

| Sıra nömrəsi | Problemlər | Tədqqatdan əvvəl uşaqların sayı | Faizlə | Tədqiqatdan sonra uşaqların sayı | Faizlə |
|---|---|---|---|---|---|
| 1 | qorxu | 23 | 82% | 4 | 14% |
| 2 | özünəinamsızlıq | 20 | 71% | 5 | 17% |
| 3 | ailədaxili münasibətlərin pozulması | 18 | 64% | 3 | 10% |
| 4 | narahatlıq | 14 | 50% | 4 | 14% |
| 5 | özünəqapalılıq | 10 | 36% | 3 | 10% |
| 6 | adaptasiya çətinlikləri | 9 | 32% | 0 | 0% |
| 7 | həmyaşıdları ilə münasibətlərin pozulması | 7 | 35% | 0 | 0% |
| Dayaq-hərəkət aparatı çatışmazlığı olan uşaqların ümumi sayı: 28 | | | | | |

Cədvəl 1-dən göründüyü kimi sosail reabilitasiya fəaliyyətinin təşkili dayaq-hərəkət aparatı çatışmazlığı olan kiçikyaşlı məktəblilərdə sosial adaptasiya və həmyaşıdları ilə münasibətlərin tamamilə yaxşılaşmasına, ailədaxili münasibətlərin pozulması kimi kollektivə məxsus münasibətlərin altı dəfə, emosional vəziyyəti ilə bağlı çatışmazlıqların isə dörd dəfəyə qədər azalmasına səbəb oldu.

Tədqiqatın aparıldığı müəssisələrin nəticələrinə görə inklüziv tipli məktəblərdə təhsil alan sağlamlıq imkanları məhdud şagirdlərin psixi və şəxsi keyfiyyətlər qazanmaları zəminində sosial reabilitasiya göstəriciləri digər müəssisələrə nisbətən daha tez və uğurlu oldu.

Tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə imkan verir:

1. Sosial reabilitasiya sağlamlıq imkanları məhdud uşaqların sosial

statusunun bərpasına yönəldilmiş müntəzəm, məqsədyönlü təlim-tərbiyə prosesidir, yaxud onların yaradıcı, sosial həyatda iştirakı, təlim-tərbiyə vasitəsilə ictimai münasibətlərə daxil olması, həmçinin psixo-texniki, pedaqoji vasitələrlə şəxsiyyətinin inkişafına yönəldilmiş prosesdir.

2. Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inklüziya olunmalarında sosial reabilitasiya bir vasitədir.

3. Sosial statusun bərpası məktəb daxilində özünü idarə edən şagird kollektivinin formalaşdırılması, pedaqoji proses və sosial-psixoloji xidmət sayəsində mümkündür.

4. Fərdi və qrup şəklində keçirilən korreksiya, kompensasiyaedici tədbirlər qrupa məxsus sosial bacarıqları inkişaf etdirdiyindən bu, sosial adaptasiya ilə nəticələnir və reabilitasiya potensialını yüksəldir. Qrupa məxsus sosial bacarıq və vərdişlərin inkişafı sosial inteqrasiyaya, kollektivə məxsus inkişaf isə sosial reabilitasiyaya səbəb olur.

5. Dayaq-hərəkət aparatı çatışmazlıqları olan şagirdlərin təlimində oyun elementlərindən, musiqidən geniş istifadə etmək, əmək fəaliyyətinin və fiziki tərbiyənin nəzərdə tutulması vacibdir.

6. Müəllim şagird münasibətində qarşılıqlı təsir prosesinin psixoloji ölçülərlə tənzimlənməsi, müəllimin öz fəaliyyətini idarə etməsi və ona nəzarət sisteminin yaradılması üçün prosesyönümlüyün təmin edilməsi vacibdir. Bu, sağlamlıq imkanları məhdud kiçikyaşlı məktəblilərin idrak fəallığının izlənilməsini, inkişaf səviyyələri və nailiyyətlərinin təhlilini, həmçinin bərabər imkanların yaradılmasını təmin edir.

7. Müəllimin fasilitator fəaliyyətində prosesyönümlüyü təmin etməsi onun refleksiya qabiliyyətini artırır ki, ba da bütün şagirdlərə eləcə də sağlamlıq imkanları məhdud şagirdlərə lazımi təlim mühitinin yaradılmasını təmin edir.

Bu nəticələrə əsasən aşağıdakı təklifləri irəli sürürük:

1. Sağlamlıq imkanları məhdud şagirdlərin təlim prosesində sosial reabilitasiyasını təmin etmək üçün xüsusi məktəblərdə dərslərin fəal təlim formasında keçirilməsi zəruridir.

2. Sağlamlıq imkanları məhdud şagirdlərlə aparılan korreksiya, kompensasiyaedici və inkişafetdirici fəaliyyətlər kollektivdə sosial bacarıqların formalaşdırılması istiqamətində həyata keçirilməli; şagird kollektivinin formalaşdırılmasının yeni yolları və metodları hazırlanmalıdır.

3. Sosial reabilitasiyanın göstəriciləri uşaqların davranış və reaksiyalarına görə pedaqoji və psixoloji ölçülərlə hazırlanmalıdır. Bu sağlamlıq imkanları məhdud uşaqların adaptasiya, inteqrasiya və sosial reabilitasiya səviyyələrini müəyyənləşdirməyə imkan verəcək.

4. Müəllimin pedaqoji fəaliyyətində prosesyönümlü yanaşmasına əsasən bərabər imkanların yaradılması prinsipinin fənn kurikulumunda nəzərə alınması vacibdir. Bu, sağlamlıq imkanları məhdud şagirdlərin potensial imkanlarını və tələblərini nəzərə almağa imkan verəcək.

5. Müəllimlərin reflektiv tədris və ya reflektiv fasilitatorluq istiqamətində peşəkarlığının artırılması vacibdir.

6. İnklüziv təhsilin keyfiyyətini yüksəltmək və sağlamlıq imkanları məhdud uşaqların sosial-pedaqoji reabilitasiyasını təmin etmək üçün təlim prosesinin idarə olunmasının qiymətləndirmədə nəzərə alınması vacibdir.

Dissertasiyanın məzmunu **çap olunmuş** aşağıdakı əsərlərdə öz əksini tapmışdır:

1. Motivasiya sahəsinin idarə olunmasının psixoloji xüsusiyyətləri // Psixologiya, 2009, №3, s.53-59
2. Problemli təlimdə anlamanın rolu // Psixologiya, 2010, №3, s.140-149
3. Психологические аспекты модернизации качества образования / "İnnovasiya, təhsilin keyfiyyəti və inkişaf" mövzusunda keçirilən I beynəlxalq elmi konfransın materialları, Bakı, 2010, 9-11 noyabr, s.141-142
4. Təlim prosesində xəyali motivin rolunun öyrənilməsinin psixoloji təhlili // Psixologiya, 2010,№4, s.143-149
5. Şagirdlərin təxəyyül və yaradıcılığının inkişaf xüsusiyyətləri // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2011, №1, s.32-36
6. Fəaliyyətin iradi tənzimlənməsinin psixoloji aspektləri // Bakı Slavyan Universitetinin Elmi əsərləri, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2011, №3, s.240-244
7. Təlim prosesində tədqiqatın təşkilinin psixo-pedaqoji yolları // Pedaqoji Universitet Xəbərləri , 2011, №4,s. 73-78
8. Xüsusi qayğıya ehtiyacı olan uşaqların əşyavi fəaliyyətində ailənin rolu // Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, 2012, №1, s. 172-175
9. Педагогические основы социальной интеграции детей, нуждающихся в особой заботе / İnnovasiya, təhsilin keyfiyyəti və inkişaf mövzusunda II Beynəlxalq elmi konfransın materialları, Bakı, 2012,7-9 iyun s. 161-163
10. Xüsusi qayğıya ehtiyacı olan uşaqların davranış problemləri/ Təhsil sistemində gənc nəslin təlim tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri mövzusunda respublika elmi konfransın materialları, Bakı, 2012,28 iyun s. 233

11. Sağlamlıq imkanları məhdud uşaqların əmək fəaliyyətinə hazırlığı/ Ümumi orta təhsilin müasir problemləri mövzusunda Beynəlxalq elmi konfransın materialları, Naxçıvan, 2012,24 noyabr, s. 190-192
12. Sosial reabilitasiya problemi // Psixologiya,2012,№2, s.58-66
13. Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailələri ilə qarşılıqlı fəaliyyət imkanlarının genişləndirilməsi // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri,2012, №4, s. 22-26
14. Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiyasına metodoloji yanaşma // Psixologiya, 2012, №4, s.118-126
15. Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiyasının psixoloji, pedaqoji və sosial əsasları // Pedaqoji Universitet Xəbərləri, 2013, №2, s.323-327
16. Проблемы в сферы инклюзивного образования в республике Азербайджан // VII Международные Волковские чтения. Интеграция этнопедагогических процессов образовательном пространстве: проблемы и перспективы. Сборник научных трудов. Стерлитамак, 2013, 28 июнь s.70-71
17. Experience of Organization of Social Rehabilitation of Children with Special Needs in the Rehabilitation Centers of the Republic of Azerbaijan. / Materials of the IV international research andpractice conference Vol. II, Munich, Germany, 2013, October 30th–31st, s.151-154
18. Sağlamlıq imkanı məhdud uşaqların sosial-emosional inkişafında mühitin rolu / Müəllim hazırlığının müasir problemləri: texnologiya, təhsil və inkişaf mövzusunda III Beynəlxalq elmi konfransın materialları, Azərbaycan Müəllimlər İnstitutu, 2014, 22-24 may, s. 86-87
19. Sağlamlıq imkanları məhdud olan uşaqlarla aparılan pedaqoji və sosial-psixoloji xidmət işi // Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, 2014, №3, s. 147-150
20. Refleksiya bacarığı inklüziv təhsildə humanist davranışın əsası kimi / Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı, 2014,5-6 dekabr, s. 295-296
21. Социально-педагогическая реабилитация детей с ограниченными возможностями здоровья //Хабаршы вестник Серия Педагогические науки, Алматы, 2014, №4, s.190-193
22. Dayaq-hərəkət aparatında pozulmaları olan uşaqlarla aparılan sosial-psixoloji xidmət işi// Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2015, №1, s. 37-42
23. İnklüziv təhsilin problemləri // Azərbaycan Respublikası Təhsil

İnstitutunun Elmi əsərləri, 2015, №1, s. 103-108
24. Xüsusi qayğıya ehtiyacı olan uşaqların inteqrasiyası və inklüziv mədəniyyətin yaradılması / Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası və sosial adaptasiyası mövzusunda respublika elmi konfransının materialları, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Respublikası Təhsil İnstitutu, 2015,s.215-218
25. Reflektiv tədrisdə yazı bacarığının formalaşdırılması // Kurikulum, 2016, cild 9, № 2, s.38-42
26. Tədris fəaliyyətində motivasiya sahəsinin idarə olunmasının psixoloji xüsusiyyətləri // Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, 2018, cild 85, № 3, s.187-191
27. Sağlamliq imkanlari məhdud olan uşaqlarin şəxsiyyətinin inkişafinda fiziki tərbiyənin rolu // Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, 2018, cild 85, №4, s.169-172

**Судаба Насраддин гызы Искендерова**

# СОЦИАЛЬНАЯ РЕАБИЛИТАЦИЯ ДЕТЕЙ С ОСОБЫМИ ПОТРЕБНОСТЯМИ

## *РЕЗЮМЕ*

Диссертационная работа состоит из введения, двух глав, восьми подглав, выводов, рекомендации, списка использованной литературы и приложений.Во введении обоснована актуальность исследования, определены цель и гипотеза темы, объект и предмет исследования, его научное и практическое значения, обоснованы представленные на защиту научные положения и полученные результаты. В первой главе под названием «Теоретические основы исследования», состоящая из четырех подглав рассмотрены различные подходы к системе социальной реабилитации детей с ограниченными возможностями, цель данной работы и сущность других форм реабилитации. В этом разделе описывается структура деятельности специалиста по социальной реабилитации, вопросы организации педагогического процесса в учебно-воспитательном процессе. В данной главе затронуты вопросы дифференциации обучения в развитии детей сограниченными возможностями как личности, адаптация в окружающей среде и в учебных материалах. Вторая глава диссертации называется «Пути совершенствования социальной реабилитации младших школьников с ограниченными возможностями». В этой главе описывается исследовательская работа, представлены методы, и результаты исследования. В подглавах особое внимание уделено диагнозам детей с ограниченными возможностями в учреждениях, где проводилось исследование, психологическим проблемам социальной реабилитации детей с проблемами опорно-двигательного аппарата, таблицам оценивания в которых отражены области развития, предпочитаемые учителями в педагогическом процессе. Здесь отмечается, что обеспечение развития по различным областям в подготовке младших школьников с ограниченными возможностями, построение педагогических условий на основе новых принципов, создает возможность эффективности их социальной реабилитации. В главе также отмечено, что предпочтение учителем при планировании своей деятельности в педагогическом процессе обучения, направленного на процесс, повышает его рефлексивные умения и помогает детям с ограниченными возможностями осознать свой статус в коллективе. В конце диссертации даны общие выводы и рекомендации, полученные на основе проведенного исследования.

**Sudaba Nasraddin Iskandarova**

# SOCIAL REHABILITATION OF CHILDREN WITH SPECIAL NEEDS

***SUMMARY***

The dissertation work consists of an introduction, two chapters, eight sub-chapters, conclusions and recommendations, the list of used literature and application.In the introduction the relevance of the study is substantiated, the purpose and hypothesis of the topic, the object and the subject of the research, its scientific and practical implications are determined, the scientific arguments and results obtained for defense are justified.The first chapter is called "The theoretical basis of the study". It consists of four sub-chapters. This chapter deals with the purpose of social rehabilitation of children with disabilities and the essence of other forms of rehabilitation. In this section the author explains the structure of activity of specialists carrying out rehabilitation, the organization issues of pedagogical process in the process of training. Differentiation of training in personality development of children with limited health, the issues of adaptation are touched in this chapter.The second chapter is called the "Ways of improving the social rehabilitation of young schoolchildren with special needs". It consists of four sub-chapters.This chapter describes the research work carried out with children with disabilities, the methods used in the study, results of the research. Diagnoses of children with limited health in research conducted institutions, psychological problems which prevent the social rehabilitation of children with the musculoskeletal system problems, the most preferred developing areas set out in the table, and assessment schedules have a special place in this chapter. It is noted that if the development will be provided on various development fields in social and psychological training of disabled young schoolchildren, if the pedagogical conditions will be based on new pedagogical principles we will achieve successes in their social rehabilitation. The school psychologist and class teacher have to create conditions at the lesson for the resolution of deficiencies defined by psychologist. Cooperation with parents must be expanded. When planning his activity in pedagogical process a teacher should give priority to process-oriented training. It creates conditions to increase the reflection ability and allows the children with limited health to realize their status. The dissertation shows the impact of social rehabilitation activities on the development of child's personality and explains the comparison of the results in research conducted institutions.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**ИНИСТИТУТ ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**СУДАБА НАСРАДДИН гызы ИСКЕНДЕРОВА**

# СОЦИАЛЬНАЯ РЕАБИЛИТАЦИЯ ДЕТЕЙ С ОСОБЫМИ ПОТРЕБНОСТЯМИ

**5805.01– Коррекционная педагогика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертация на соискание ученой степени доктора философии по педагогике**

**БАКУ–2018**